**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 46**

**Bakı şəhəri** **29 oktyabr 2014-cü il**

**"Diridoğulma meyarları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli 550 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın 4.5.1-ci yarımbəndinə və "Diridoğulmanın beynəlxalq meyarları"nın tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 oktyabr tarixli 340 nömrəli qərarının 2-ci bəndinə əsasən Azərbaycan Respublikasında "Diridoğulmanın beynəlxalq meyarlarına" keçmək məqsədi ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Diridoğulma meyarları" təsdiq edilsin (əlavə olunur).

2. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın ki, 2015-ci il yanvarın 1-dən doğuşayardım tibb müəssisələrində "Diridoğulma meyarları"nın tətbiqi təmin edilsin.

3. Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4. Qərarın icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

**Kollegiyanın məsul katibi** **Nərgiz Şahbazova**

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 29 oktyabr 2014-cü il tarixli 46 nömrəli qərarı ilə təsdiq edilmişdir*

**Diridoğulma meyarları**

1. Bu meyarlar Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli 550 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın 4.5.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasında diridoğulmanın beynəlxalq meyarlarının tətbiq edilməsi məqsədi ilə hazırlanmışdır və körpənin diri doğulmuş hesab edilməsi üçün meyarları müəyyən edir.

2. Körpənin doğulduğu vaxt dölün doğuş vasitəsilə ananın orqanizmindən ayrıldığı an hesab olunur.

3. Diridoğulma meyarları aşağıdakılardır:

3.1. hamiləlik müddətinin 22 həftə və daha çox olması;

3.2. doğulan zaman körpənin bədən çəkisinin 500 qram və daha çox (çoxdöllü doğuşlarda 500 qramdan az) olması;

3.3. doğulan zaman körpənin bədəninin uzunluğunun 25 sm və daha çox olması (doğulan zaman körpənin bədən çəkisi məlum olmadığı halda).

4. Diridoğulma - hamiləliyin 22 həftə və daha sonrakı müddətində çəkisi 500 qram və daha çox olan (və ya çoxdöllü doğuşlarda 500 qramdan az) və ya doğulan zaman bədən çəkisi məlum olmadıqda, körpənin bədəninin uzunluğu 25 sm və daha çox olan və diridoğulma əlamətlərindən biri (nəfəsalma, ürək döyüntüsü, göbək bağının döyüntüsü və ya göbək bağının kəsilib-kəsilməməsindən və ciftin ayrılıb-ayrılmamasından asılı olmayaraq əzələlərin ixtiyari hərəkəti) müşahidə edilən dölün doğuş vasitəsilə ananın orqanizmindən ayrılmasıdır.

5. Doğulan zaman körpənin bədən çəkisi onun həyatının birinci saatı ərzində çəkilməsinin nəticəsi hesab edilir. Yenidoğulmuşun bədəninin uzunluğu, onun üfüqi boyölçənin üzərində uzadılmış və gərilmiş vəziyyətində, təpəsindən dabanınadək ölçməklə müəyyən edilir. 2500 qramadək çəki ilə doğulmuş körpələr aşağı çəkili, 1500 qramadək çəki ilə doğulmuş körpələr çox aşağı çəkili, 1000 qramadək çəki ilə doğulmuş körpələr isə həddən aşağı çəkili yenidoğulmuş hesab olunurlar.

6. Ölüdoğulma - hamiləliyin 22 həftə və ondan sonrakı müddətində çəkisi 500 qram və daha çox olan (və ya çoxdöllü doğuşlarda 500 qramdan az) və ya doğulan zaman bədən çəkisi məlum olmadıqda, körpənin bədəninin uzunluğu 25 sm və daha çox olan və diridoğulma əlamətləri müşahidə edilməyən dölün doğuş vasitəsilə ananın orqanizmindən ayrılmasıdır.

7. Mülkiyyət formasından asılı olmayaraq, tibb müəssisələri diri və ölü doğulmuş bütün körpələr haqqında məlumatı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin elektron-informasiya bazasına, "Doğum tarixi"nə (AZS-096), "Yenidoğulmuşun inkişaf tarixi"nə (AZS-097) daxil edirlər.